# AVROPA ŞURASININ NAZİRLÄR KOMİTÄSİNİN DÖVLÄT QULLUQÇULARI ÜÇÜN DAVRANIŞ KODEKSİ HAQQINDA TÖVSİYÄ № R(2000)10

*Nazirlär Komitäsinin 11 may 2000-ci il tarixli 106-cı sessiyasında qäbul olunub.*

Nazirlär Komitäsi:

Avropa Şurasının Nizamnamäsinin 15B maddäsinä uyğun olaraq;

Avropa Şurasının mäqsädinin öz üzvläri arasında sıx birliyin tämin edilmäsi olduğunu näzärä alaraq;

demokratik cämiyyätdä dövlät orqanlarının mühüm rol oynamasını vä onların öz väzifälärini layiqincä icra etmäsi üçün öz säräncamında müvafiq işçi heyätinä malik olmasını näzärä alaraq;

dövlät qulluqçularının dövlätin inzibati aparatının äsas hissäsi olması, onların xüsusi väzifä vä öhdäliklärä malik olması vä onların öz väzifälärini layiqincä icra etmäsi üçün uyğun ixtisasa, maddi vä hüquqi mühitä malik olmasını näzärä alaraq;

korrupsiyanın hüquqi dövlät, insan haqları, ädalät, o cümlädän sosial ädalät üçün ciddi tählükä, iqtisadi inkişaf üçün maneä olmasında, demokratik institutların sabitliyini vä cämiyyätin mänävi däyärlärini tählükä altında qoymasında ämin olaraq;

Avropa ölkälärinin ädliyyä nazirlärinin 19 vä 21-ci konfranslarının (müvafiq olaraq 1994-cü ildä La-Valettada vä 1997-ci ildä Praqada keçirilmiş) Tövsiyälärini näzärä alaraq;

Nazirlär Komitäsinin 1996-cı ildä qäbul etdiyi korrupsiyaya qarşı mübarizä Proqramını näzärä alaraq;

Avropa Şurasının Nazirlär Komitäsinin dövlät orqanlarının säräncamında olan mälumatın äldä edilmäsi imkanı haqqındakı R(81)19 saylı Tövsiyäsini näzärä alaraq;

Avropa Şurasının Nazirlär Komitäsinin Avropada dövlät qulluqçularının Statusu haqqındakı R(2000)6 saylı Tövsiyäsini näzärä alaraq;

Avropa Şurası dövlätläri vä hökumätlärinin başçılarının 10-11 oktyabr 1997-ci il tarixindä Strasburqda keçirilän 2-ci zirvä görüşündä qäbul etdikläri Yekun bäyannamäyä vä fäaliyyät Proqramına uyğun olaraq;

Avropa Şurasının üzvü olmayan dövlätlärin Avropa Şurasının korrupsiyaya qarşı mübarizä tädbirlärindä iştirakının bu konteksdä ähämiyyätini xatırlayaraq vä onların korrupsiya ilä mübarizä Proqramının häyata keçirilmäsindäki däyärli töhfälärini alqışlayaraq;

Korrupsiya ilä mübarizänin 20 rähbär prinsipini özündä ehtiva edän (97)24 saylı Qätnamäni näzärä alaraq;

öz üzvlärinin korrupsiya ilä mübarizä qabiliyyätinin artırılmasını qarşısına mäqsäd qoyan vä eyni zamanda da onların öz öhdäliklärini yerinä yetirmäsinä näzarät edän QREKO korrupsiya äleyhinä dövlätlär Qrupunun yaradılması haqqında qismän genişländirilmiş razılıq Müqaviläsinin müvafiq olaraq icazäsinin verilmäsini vä qäbul edilmäsini özündä ehtiva edän (98)7 vä (99)5 saylı Qätnamäläri näzärä alaraq;

korrupsiyanın qarşısının alınmasında ictimaiyyätin diqqätininin cälb edilmäsinin vä mänävi däyärlärin geniş yayılmasının mühüm vasitälär olmasında ämin olaraq;

Üzv dövlätlärä tövsiyä edir ki, bu Tövsiyäyä älavä olunan qoşmadakı dövlät qulluqçuları üçün davranışın Modul kodeksini rähbär tutaraq öz dövlät inzibati aparatlarının fäaliyyätini tänzimläyän milli qanunvericiliyin vä prinsiplärinin toxunulmazlığı şärti daxilindä dövlät qulluqçuları üçün milli davranış kodekslärinin qäbul olunmasına yardım etsinlär; vä

QREKO korrupsiya äleyhinä dövlätlär Qrupuna tapşırır ki, bu Tövsiyänin icrasına näzarät etsin.